**AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ İDARƏ HEYƏTİNİN**

**QƏRARI**

**№ 44/5**

**Bakı şəhəri** **16 dekabr 2025-ci il**

**"Məsafədən hesabların açılması Qaydası"nın təsdiq edilməsi və Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 04 fevral 2022-ci il tarixli 04/2 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bank hesablarının açılması, aparılması və bağlanması Qaydası"nda, 21 sentyabr 2023-cü il tarixli 46/4 nömrəli Qərarı ilə təsdiq edilmiş "Banklarda kredit risklərinin idarə edilməsi Qaydası"nda, 15 noyabr 2024-cü il tarixli 46/2 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bank olmayan kredit təşkilatlarında kredit risklərinin idarə edilməsi Qaydası"nda, 31 avqust 2021-ci il tarixli 23/1 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnvestisiya şirkətləri və banklar tərəfindən investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi Qaydası"nda dəyişikliklər edilməsi barədə**

"Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 22.1.17-ci maddəsinə əsasən Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti

**QƏRARA ALIR:**

1. "Məsafədən hesabların açılması Qaydası" təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 04 fevral 2022-ci il tarixli 04/2 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bank hesablarının açılması, aparılması və bağlanması Qaydası"nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).
3. Azərbaycan Respublikasının Mərkəzi Bankının İdarə Heyətinin 21 sentyabr 2023-cü il tarixli 46/4 nömrəli Qərarı ilə təsdiq edilmiş "Banklarda kredit risklərinin idarə edilməsi Qaydası"nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).
4. Azərbaycan Respublikasının Mərkəzi Bankının İdarə Heyətinin 15 noyabr 2024-cü il tarixli 46/2 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bank olmayan kredit təşkilatlarında kredit risklərinin idarə edilməsi Qaydası"nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).
5. Azərbaycan Respublikasının Mərkəzi Bankının İdarə Heyətinin 31 avqust 2021-ci il tarixli 23/1 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnvestisiya şirkətləri və banklar tərəfindən investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi Qaydası"nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).
6. Bu Qərarın 1-5-ci hissələri ilə təsdiq edilmiş dəyişikliklər bu Qərar dərc edildiyi gündən 3 (üç) ay sonra qüvvəyə minsin.
7. Maliyyə bazarlarının hüquqi təminatı departamentinə tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət

Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**

“Təsdiq edilmişdir”
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar № 44/5
16 dekabr 2025-ci il

**Məsafədən hesabların açılması**

**Qaydası**

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda Azərbaycan Respublikasının “Banklar haqqında” Qanununun 36.2-ci, “Poçt haqqında” Qanununun 13-3.1-ci, “Bank olmayan kredit təşkilatları haqqında” Qanununun 15.1-ci, “Qiymətli kağızlar bazarı haqqında” Qanununun 30.6-cı maddələrinə əsasən hazırlanmışdır və kredit təşkilatlarında, investisiya şirkətlərində, poçt rabitəsinin milli operatorunda, ödəniş təşkilatlarında (müstəsna olaraq ödəniş əməliyyatının aparılması üçün vasitəçilik xidməti və (və ya) hesab üzrə məlumat xidməti göstərən ödəniş təşkilatları istisna olmaqla), habelə elektron pul təşkilatlarında (bundan sonra – nəzarət subyektləri) məsafədən hesabların açılması qaydasını müəyyən edir.

1.2. İki və ya daha çox şəxsə məsafədən birgə hesab açıldıqda bu Qaydanın tələbləri həmin şəxslərin hər birinə ayrı-ayrılıqda tətbiq edilir.

1.3. Məsafədən hesabların açılması zamanı Azərbaycan Respublikası Mülki Məcəlləsinin, habelə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 4 fevral 2022-ci il tarixli 04/2 nömrəli Qərarı ilə təsdiq edilmiş “Bank hesablarının açılması, aparılması və bağlanması Qaydası”nın və 31 avqust 2021-ci il tarixli 23/1 nömrəli Qərarı ilə təsdiq edilmiş “İnvestisiya şirkətləri və banklar tərəfindən investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi Qaydası”nın tələblərinə riayət olunmalı, o cümlədən həmin qaydalarda qeyd olunmuş məlumat və sənədlər əldə edilməlidir.

## 2. Əsas anlayışlar

2.1. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. məsafədən hesabların açılması – nəzarət subyekti əməkdaşının və məsafədən hesabın açılması üçün müraciət edən şəxsin (bundan sonra – müştəri) eyni zamanda birgə fiziki iştirakı olmadan informasiya texnologiyaları vasitəsilə hesabların açılması;

2.1.2. hesab – bank və digər ödəniş hesabı, müştəri hesabı (depo hesabı və marja hesabı);

2.1.3. şəxsin eyniləşdirilməsi – şəkil çəkilişi, videoçəkiliş və ya videozəng vasitəsilə müştərinin eyniləşdirilməsi və verifikasiyası;

2.1.4. videozəng – nəzarət subyekti əməkdaşının və müştərinin iştirakı ilə real vaxtda informasiya texnologiyaları vasitəsilə videoqeydiyyat formatında həyata keçirilən şəxsin eyniləşdirilməsi;

2.1.5. şəkil çəkilişi – nəzarət subyekti əməkdaşının birbaşa iştirakı olmadan informasiya texnologiyaları vasitəsilə fotoqeydiyyat formasında həyata keçirilən şəxsin eyniləşdirilməsi;

2.1.6. videoçəkiliş – nəzarət subyekti əməkdaşının birbaşa iştirakı olmadan informasiya texnologiyaları vasitəsilə videoqeydiyyat formatında həyata keçirilən şəxsin eyniləşdirilməsi.

2.2. Bu Qaydada istifadə edilən "gücləndirilmiş elektron imza" anlayışı "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş mənaları ifadə edir.

2.3. Bu Qaydada istifadə olunan digər anlayışlar digər normativ hüquqi və normativ xarakterli aktlarda müəyyənləşdirilmiş mənaları ifadə edir.

## 3. Hesabların məsafədən açılması

3.1. Məsafədən hesab açılan zaman nəzarət subyekti tərəfindən istifadə edilən informasiya texnologiyaları, o cümlədən informasiya sistemi, proqram təminatı "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanunu və digər hüquqi aktlar ilə müəyyən edilmiş tələblərə cavab verməlidir.

3.2. Fiziki şəxs olan müştərilərə münasibətdə qanuni nümayəndə qismində valideynlər, övladlığa götürənlər və ya qəyyumlar, hüquqi şəxs olan müştərilərə münasibətdə qanuni təmsilçi istisna olmaqla müştəriyə digər səlahiyyətli nümayəndə vasitəsilə məsafədən hesab açılmasına yol verilmir.

3.3. Nəzarət subyekti məsafədən açılan hesablar ilə bağlı limitlər müəyyən etdikdə, bu barədə müştəriyə məlumat verilməli və hesab açılarkən həmin limitlərə riayət olunmalıdır.

3.4. Nəzarət subyekti xidmət göstərdiyi şəxsin yazılı müraciəti ilə ona məsafədən hesab açılmasını məhdudlaşdırmaq imkanı yaratmalıdır. Müvafiq məhdudiyyət yalnız həmin şəxsin nəzarət subyektində fiziki iştirakı ilə təqdim etdiyi yazılı müraciəti əsasında aradan qaldırıla bilər.

## 4. Müraciətin edilməsi

4.1. Məsafədən hesab açılması üçün müştəri tərəfindən nəzarət subyektinə elektron qaydada müraciət edilir.

4.2. Bu Qaydanın 4.3-cü bəndində nəzərdə tutulan hallar istisna olmaqla müştərinin müraciəti əsasında nəzarət subyekti tərəfindən hesabın açılması üçün qanunvericiliklə tələb edilən məlumat və sənədlər nəzarət subyektinə təqdim olunmalıdır. Məlumat və sənədlər elektron formada təqdim edildikdə məlumatlar müştərinin, sənədlər onları tərtib etmiş şəxslərin gücləndirilmiş elektron imzası ilə təsdiqlənmiş formada, kağız daşıyıcıda təqdim edildikdə isə əsli və ya surəti qanunvericiliyə uyğun olaraq təsdiqlənmiş formada olmalıdır.

4.3. Aşağıdakı hallarda müştəridən məlumat və sənədlərin nəzarət subyektinə təqdim edilməsi tələb olunmur:

4.3.1. nəzarət subyektində daha öncə hesabın açılması zamanı əldə edilmiş müvafiq məlumat və sənədlər mövcud olduqda və bu məlumat və sənədlər müştəri uyğunluğu tədbirlərinin davamlı olaraq tətbiq edilməsi nəticəsində yenilənmiş olduqda;

4.3.2. nəzarət subyekti "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa (bundan sonra – ƏL/TMM Qanunu) müvafiq olaraq qəbul edilmiş "Müştəri uyğunluğu və yeni texnologiyaların tətbiqi zamanı verifikasiya tədbirlərinə, risk faktorlarının müəyyən edilməsinə və müştəri profilinin risk qruplarına aid edilməsinə dair Qaydalar"a (bundan sonra – MUT Qaydaları) uyğun olaraq tələb edilən məlumat və sənədləri ƏL/TMM Qanununun 5-ci maddəsinə müvafiq olaraq üçüncü şəxslərə güvənərək əldə etdikdə;

4.3.3. dövlət informasiya sistemlərinə inteqrasiya təmin olunduğu halda nəzarət subyekti tərəfindən müvafiq məlumat və sənədlər həmin informasiya sistemlərindən əldə edildikdə.

4.4. Əldə edilmiş məlumat və sənədlər əsasında nəzarət subyekti tərəfindən MUT Qaydalarına uyğun olaraq verifikasiya tədbirləri görülür, nəzarət subyektinin daxili qaydalarına uyğun olaraq risk qiymətləndirilməsi həyata keçirilir. Risk qiymətləndirilməsi nəticələrindən asılı olaraq prosesə xitam verilməsi halları nəzarət subyektinin daxili qaydaları ilə müəyyən edilir.

4.5. Əldə edilmiş məlumat və sənədlər əsasında nəzarət subyekti tərəfindən müştərinin fəaliyyət qabiliyyəti, səlahiyyəti və gücləndirilmiş elektron imzası qanunvericiliyə uyğun olaraq yoxlanılır.

## 5. Şəxsin eyniləşdirilməsi

5.1. Bu Qayda ilə müəyyən edilmiş şəxsin eyniləşdirilməsinə dair tələblərin tətbiqi üzrə biznes proseslərinin və nəzarət mexanizmlərinin formalaşdırılmasından öncə nəzarət subyekti tərəfindən əməliyyat və komplayens risklərinin təhlili və onların effektiv idarə edilməsi məqsədilə tədbirlər, o cümlədən müvafiq təhlükəsizlik tədbirləri görülür.

5.2. Şəxsin eyniləşdirilməsindən əvvəl nəzarət subyekti tərəfindən müştəri eyniləşdirilmənin keçirilməsi ilə bağlı qaydalarla və müəyyən edilmiş şərtlərlə tanış edilir, habelə hesabın açılması üçün qanuna uyğun olaraq tələb olunan fərdi məlumatların "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq toplanılmasına və işlənilməsinə yazılı razılıq alınır.

5.3. Bu Qaydanın 4-cü hissəsinə uyğun olaraq, müvafiq prosedurlardan keçən şəxsə münasibətdə şəxsin eyniləşdirilməsi prosesinə başlanılır.

5.4. Şəxsin eyniləşdirilməsi risk əsaslı yanaşma nəzərə alınmaqla, nəzarət subyekti tərəfindən təsdiq edilmiş daxili qaydalar əsasında aşağıdakı üsullardan biri və ya bir neçəsinin tətbiqi yolu ilə həyata keçirilir:

5.4.1. şəkil çəkilişi vasitəsilə eyniləşdirmə;

5.4.2. videoçəkiliş vasitəsilə eyniləşdirmə;

5.4.3. videozəng vasitəsilə eyniləşdirmə.

5.5. Nəzarət subyekti tərəfindən şəkil çəkilişi, videoçəkiliş və ya videozəng nəticəsində müvafiq görüntülər əldə edilməlidir. Görüntülər aşağıdakı tələblərə uyğun olmalıdır:

5.5.1. görüntü və səs keyfiyyəti azı sinxronizasiya olunmuş şəkildə bütün proses zamanı şəxsin eyniləşdirilməsinə və verifikasiyasına imkan verməlidir;

5.5.2. görüntü rəngli olmalıdır;

5.5.3. görüntüdə şəxsin üz təsviri aydın görünməli, üz təsviri açıq olmalı və üzərinə kölgə düşməməli, üz təsvirini örtən hər hansı əşya, o cümlədən eynək və ya üzüörtən hər hansı bir vasitə olmamalıdır;

5.5.4. görüntüdə şəxsdən başqa üçüncü şəxslər iştirak etməməli, o cümlədən üçüncü şəxslərin köməyindən istifadə olunmamalıdır.

5.6. Videozəng real vaxtda və fasiləsiz olaraq həyata keçirilir.

5.7. Şəxsin eyniləşdirilməsi prosesində fiziki şəxsin canlılığını aşkarlayan üsullar istifadə edilməlidir. Canlılığın yoxlanılması proqram təminatı vasitəsilə həyata keçirilməlidir. Şəxsin canlı insan olduğundan əmin olmaq üçün ondan təsadüfi sıra ilə minimum 3 hərəkətin edilməsi tələb olunur. Proqram təminatı vasitəsilə şəxsin reaksiyalarının verilmiş tapşırıqlara uyğunluğu, şəxsin üz təsvirinin canlı dinamikası, o cümlədən onun şüurlu idarə edə bilmədiyi təbii fizioloji reaksiyaları təhlil edilir.

5.8. Şəxsin eyniləşdirilməsi zamanı şəxsin üz təsviri onun dövlət informasiya sistemindəki fotoşəkili ilə proqram təminatı vasitəsilə üzləşdirilir.

5.9. Nəzarət subyektində hesabı mövcud olan müştərilər tərəfindən həmin nəzarət subyektində məsafədən yeni hesabın açılması zamanı şəxsin eyniləşdirilməsinin həyata keçirilməsi tələb olunmur. Nəzarət subyekti bu qaydada hesabın açılmasını riskli hesab edərsə, bu Qaydanın 5.4-cü bəndində nəzərdə tutulan üsullardan birini və ya bir neçəsini tətbiq edə bilər.

5.10. Şəxsin eyniləşdirilməsi zamanı nəzarət subyekti ilə müştəri arasındakı rabitənin bütövlüyü və məxfiliyi, o cümlədən məlumatların ötürülməsi kanallarının tam şifrələnməsi təmin edilir.

## 6. Müqavilələrin bağlanması

6.1. Bu Qaydanın tələblərinə riayət olunduqda və məsafədən hesab açılmasından imtina edilmədikdə müştəri ilə nəzarət subyekti arasında hesabın açılmasına dair müvafiq müqavilə bağlanılır.

6.2. Nəzarət subyekti tərəfindən müvafiq müqavilənin layihəsi aydın və oxunaqlı formada davamlı daşıyıcıda (məlumatın onun məqsədlərinə uyğun müddət ərzində saxlanmasına imkan verən və saxlanılan məlumatın dəyişiklik olmadan əks etdirilməsi mümkün olan istənilən vasitə) müştəriyə təqdim edilir.

6.3. Müştəri ona təqdim olunmuş müqavilə layihəsi ilə tanış olur və şərtləri ilə razı olduqda müqaviləni və digər əlaqəli sənədləri gücləndirilmiş elektron imza ilə təsdiq edir.

6.4. Nəzarət subyekti həmin müqaviləni gücləndirilmiş elektron imza ilə təsdiq edir və müştəriyə davamlı daşıyıcıda təqdim edir. Nəzarət subyekti müştərinin tələbi ilə məsafədən bağlanmış müqavilənin surətini müştərinin seçdiyi formada (kağızda və ya digər davamlı daşıyıcıda) əlçatan etməlidir.

6.5. Aşağıdakı hallarda məsafədən hesab açılmasından imtina edilir:

6.5.1. bu Qaydanın 1.3-cü bəndində göstərilən hüquqi aktlarda nəzərdə tutulmuş hallar mövcud olduqda;

6.5.2. bu Qaydanın 4.5-ci bəndinə uyğun olaraq aparılan yoxlama nəticəsində məsafədən hesabın açılması mümkün olmadıqda;

6.5.3. bu Qaydanın 5-ci hissəsinin tələblərinə uyğun olaraq şəxsin eyniləşdirilməsi mümkün olmadıqda.

6.6. Nəzarət subyekti tərəfindən hesabın məsafədən açılmasından imtina edildikdə bu barədə müştəriyə onun təqdim etdiyi müvafiq əlaqə vasitələri ilə (SMS məlumatlandırma, elektron poçt ünvanı və s.) bildiriş göndərilir və bildirişdə imtinanın səbəbləri göstərilir.

## 7. Yekun müddəalar

7.1. Məsafədən hesab açılması xidmətini göstərən nəzarət subyektinin müşahidə (direktorlar) şurası (belə orqan olmadıqda nəzarət subyektinin icra orqanı) tərəfindən bu xidmətlərə dair daxili qaydalar təsdiq edilir. Şəxsin eyniləşdirilməsi prosesinin adekvatlığının yoxlanılması ildə bir dəfədən az olmayaraq nəzarət subyektinin daxili qaydaları ilə müəyyən edilmiş dövriliklə həyata keçirilir.

7.2. Təhlükəsizlik pozuntularının aşkarlanması və ya baş verməsi, aidiyyəti hüquqi aktlarda dəyişikliklərin edilməsi, nəzarət subyektinin mümkün fırıldaqçılıq və ya digər hüquq pozuntusu hallarından xəbərdar olması və şəxsin eyniləşdirilməsi ilə bağlı çatışmazlıqların aşkarlanması hallarında texnoloji inkişaf və prosesin tətbiqində qazanılan təcrübə də nəzərə alınmaqla məsafədən hesab açılması proseslərinə yenidən baxılır, zərurət olduqda daxili qaydalarda müvafiq dəyişikliklər edilir.

7.3. Məsafədən hesab açılması zamanı əldə olunmuş bütün məlumat və sənədlər, o cümlədən şəxsin eyniləşdirilməsi zamanı yaradılmış video və audio fayllar, şəkillər, loqlar qanunvericiliyə uyğun qaydada və müddətlərdə saxlanılır.

“Təsdiq edilmişdir”
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar № 44/5
16 dekabr 2025-ci il

**Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 04 fevral 2022-ci il tarixli 04/2 nömrəli Qərarı ilə təsdiq edilmiş “Bank hesablarının açılması, aparılması və bağlanması Qaydası”nda dəyişikliklər**

**1.** Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 4 fevral 2022-ci il tarixli 04/2 nömrəli Qərarı ilə təsdiq edilmiş “Bank hesablarının açılması, aparılması və bağlanması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 1.9-cu bənd əlavə edilsin:

“1.9. Məsafədən bank hesabının açılması zamanı bu Qaydanın və Mərkəzi Bankın İdarə Heyətinin 16 dekabr 2025-ci il tarixli 44/5 nömrəli Qərarı ilə təsdiq edilmiş “Məsafədən hesabların açılması Qaydası”nın tələblərinə əməl edilməlidir.”;

1.2. 4.22-ci bənddə “Bu Qaydanın 5-ci hissəsinə” sözləri “Mərkəzi Bankın İdarə Heyətinin 16 dekabr 2025-ci il tarixli 44/5 nömrəli Qərarı ilə təsdiq edilmiş “Məsafədən hesabların açılması Qaydası”na” sözləri ilə əvəz edilsin;

1.3. 5-ci hissə və Qaydaya 6 nömrəli Əlavə ləğv edilsin;

1.4. 6.2-ci bənddə “, gücləndirilmiş müştəri autentifikasiyası” sözləri çıxarılsın.

“Təsdiq edilmişdir”
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar № 44/5
16 dekabr 2025-ci il

**Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 21 sentyabr 2023-cü il tarixli 46/4 nömrəli Qərarı ilə təsdiq edilmiş “Banklarda kredit risklərinin idarə edilməsi Qaydası”nda dəyişikliklər**

1. Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 21 sentyabr 2023-cü il tarixli 46/4 nömrəli Qərarı ilə təsdiq edilmiş “Banklarda kredit risklərinin idarə edilməsi Qaydası”nın 8.5-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“8.5. İstehlak krediti müqaviləsinin məsafədən bağlanması, müqaviləyə dəyişiklik edilməsi, o cümlədən kredit limitinin artırılması zamanı Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və Mərkəzi Bankın İdarə Heyətinin 16 dekabr 2025-ci il tarixli 44/5 nömrəli Qərarı ilə təsdiq edilmiş “Məsafədən hesabların açılması Qaydası”nın” tələblərinə əməl edilməlidir.”.

“Təsdiq edilmişdir”
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar № 44/5
16 dekabr 2025-ci il

**Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 15 noyabr 2024-cü il tarixli 46/2 nömrəli Qərarı ilə təsdiq edilmiş “Bank olmayan kredit təşkilatlarında kredit risklərinin idarə edilməsi Qaydası”nda dəyişikliklər**

**1.** Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 15 noyabr 2024-cü il tarixli 46/2 nömrəli Qərarı ilə təsdiq edilmiş “Bank olmayan kredit təşkilatlarında kredit risklərinin idarə edilməsi Qaydası”nın 5.8-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“5.8. İstehlak krediti müqaviləsinin məsafədən bağlanması, müqaviləyə dəyişiklik edilməsi, o cümlədən kredit limitinin artırılması zamanı Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 16 dekabr 2025-ci il tarixli 44/5 nömrəli Qərarı ilə təsdiq edilmiş “Məsafədən hesabların açılması Qaydası”nın” tələblərinə əməl edilməlidir.”.

“Təsdiq edilmişdir”
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar № 44/5
16 dekabr 2025-ci il

**Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 31 avqust 2021-ci il tarixli 23/1 nömrəli Qərarı ilə təsdiq edilmiş “İnvestisiya şirkətləri və banklar tərəfindən investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi Qaydası”nda dəyişikliklər**

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 31 avqust 2021-ci il tarixli 23/1 nömrəli Qərarı ilə təsdiq edilmiş “İnvestisiya şirkətləri və banklar tərəfindən investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi Qaydası”nın 13.10-cu bəndində “Mərkəzi Bankın İdarə Heyətinin 4 fevral 2022-ci il tarixli 04/2 nömrəli Qərarı ilə təsdiq edilmiş “Bank hesablarının açılması, aparılması və bağlanması Qaydası”nın 5-ci hissəsinin” sözləri “Mərkəzi Bankın İdarə Heyətinin 16 dekabr tarixli 44/5 nömrəli Qərarı ilə təsdiq edilmiş “Məsafədən hesabların açılması Qaydası”nın” sözləri ilə əvəz edilsin.